

# Daşkəsən rayonunun sosial-iqtisadi potensialı və gələcək inkişaf perspektivləri

***Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə ölkəmizin iqtisadi rayonlarının yeni bölgüsü təsdiqlənmişdir. Fərmanda qeyd edilir ki, hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd olunan ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmini üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.***

Prezident cənab İlham Əliyevin müəyyən etdiyi sənayenin inkişaf etdirilməsi siyasətinə uyğun olaraq həyata keçirilən çevik və effektiv iqtisadi islahatlar milli rəqabətqabiliyyətli məhsul ixracını artıracaq, ölkəmizə investorların sərmayə qoymasını stimullaşdıracaq, məşğulluq imkanları güclənəcək, yeni iş yerləri açılacaq, milli iqtisadiyyatın dünya iqtisadiyyatı sisteminə inteqrasiyası sürətlənəcəkdir.

Yeni yaradılan Gəncə – Daşkəsən (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları) iqtisadi rayonu ölkə miqyasında təsərrüfatın ixtisaslaşma istiqamətlərinə görə fərqlənən ərazilərdəndir. Bu iqtisadi rayonun tərkibində olan Daşkəsən rayonu isə əsasən qara və əlvan metallurgiya sənayesi və kənd təsərrüfatı üzrə ixtisaslaşmışdır.

Prezident cənab İlham Əliyevin qeyri-neft sənayesinin inkişafına göstərdiyi diqqət və qayğı sayəsində Daşkəsən rayonu son illər xeyli inkişaf etmiş və demək olar ki, ötən uğurlu illər ərzində Daşkəsənin sosial-iqtisadi, o cümlədən mədəni siması müasirləşərək tamamilə dəyişmişdir. Regionların inkişafından danışarkən ilk növbədə dövlət başçımızın müvafiq Fərmanları ilə təsdiq edilmiş regionların sosial-iqtisadi dövlət proqramları xüsusi qeyd edilməlidir.

Daşkəsən rayonu yaranan vaxtdan indiyədək rayonun dəniz səviyyəsindən 1800 metr yüksəklikdə yerləşməsinə görə rəhbər kadrların iki-üç il ərzində yerdəyişməsi aparılmalıdır.

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq bütün potensial imkanlar nəzərə alınmaqla Daşkəsən rayonunun hərtərəfli sosial-iqtisadi inkişafını, mövcud problemlərin həllini əsas vəzifə kimi qarşıya qoyan 53 bənddən ibarət kompleks layihə – "Yeni Daşkəsən" layihəsi Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən 2012-ci ildə elmi əsaslarla hazırlanaraq rayon ərazisində geniş, irimiqyaslı tikinti, quruculuq, abadlıq, təmir-bərpa işləri aparıldı, bir sıra infrastruktur layihələri icra edildi. Prezident İlham Əliyevin rəhbərliyi altında "Yeni Daşkəsən" layihəsində nəzərdə tutulan müddəaların mərhələli surətdə uğurla həyata keçirilməsi Daşkəsən rayonunun yeni inkişaf mərhələsinə daxil olması üçün zəmin yaratdı.

Prezident İlham Əliyevin sərəncamları əsasında 27,3 km uzunluğu olan Zağalı-Kollu-Çıraqlı, 25 km uzunluğu olan Daşkəsən – Əmirvar – Qabaqtəpə, 20 km uzunluğu olan olan Quşçu – Çovdar – Çaykənd avtomobil yollarının tikintisi başa çatdırılmış, yeni



körpülər inşa olunmuşdur. Hazırda Daşkəsən – Xanbulaq – Astaf avtomobil yolunun əsaslı təmiri işləri davam etdirilir.

20 kilometrdən çox uzunluğu olan magistral su kəməri ilə ekoloji cəhətdən təmiz içməli su ucqar dağ ətəyindən rayon mərkəzinə gətirilərək "Daşkəsən şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi başa çatdırılmış, Daşkəsən Sukanal Sahəsi üçün müasir tipli inzibati bina tikilərək istifadəyə verilmişdir. Layihə çərçivəsində Daşkəsən şəhərində 11,5 km uzunluğunda kanalizasiya şəbəkəsi və sutəmizləyici qurğular inşa edilmişdir.

Həmçinin rayonun, əsasən bütün yaşayış məntəqələrində sakinlərin içməli su təminatını yaxşılaşdırmaq məqsədilə yeni bulaqlar çəkilərək istifadəyə verilmişdir.

Rayonun yaşayış məntəqələrinin qazlaşdırılma səviyyəsi əhəmiyyətli dərəcədə artmışdır. Daşkəsənin 49 yaşayış məntəqəsindən 1 şəhər, 5 qəsəbə və 9 kənd tam qazlaşdırılmışdır. Bu sahədə müvafiq işlər davam etdirilir.

Bayan kəndi ərazisində 2 dəmir yolu körpüsü əsaslı təmir edilmiş, Qabaqtəpə kəndində tam müasir tipli 2 körpü tikilmişdir.

2021-ci ildə cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədovun səmərəli fəaliyyəti nəticəsində maddi-texniki bazası əsaslı formada gücləndirilən Daşkəsən Elektrik Şəbəkəsi öz işini günün tələbləri səviyyəsində qurmuşdur. Belə ki, Daşkəsən əhalisinin dayanıqlı elektrik enerjisi ilə təminatında, elektrik qəza-bərpa işlərinin operativ surətdə aparılmasında hazırda rayonda heç bir çətinliyimiz yoxdur.

Son illər rayonun ayrı-ayrı ünvanlarında yeni elektrik yarımstansiyaları tikilmiş, SİP-ləşmə aparılmış, müasir transformatorlar quraşdırılaraq istifadəyə verilmişdir. Daşkəsən rayonunda 30-dək uçar dağ kəndini dayanıqlı, keyfiyyətli elektrik enerjisi ilə təmin edən Kəlbəcər xəttinin üzərində 110 kV-luq Daşkəsən rayon "Əhmədli" yarımstansiyasi qurulmuş və həmin mənbədən də elektrik verilişi xətti çəkilərək tam müasir standartlara cavab verən 35 kV-luq "Zağalı" elektrik yarımstansiyası inşa edilmişdir. "Əhmədli" və "Zağalı" elektrik yarımstansiyalarının istifadəyə verilməsi Daşkəsən rayonunun hələ sovetlər dövründən mövcud olan elektrik enerjisi ilə bağlı problemini tamamilə aradan qaldırmış və bununla da əhali dayanıqlı elektrik enerjisi ilə daimi təmin olunmuşdur.

Həmçinin Daşkəsəndə ekoturizm, dağ turizmi, alpinizm turizmi, aqroturizm növlərini inkişaf etdirmək üçün əlverişli şərait mövcuddur. Rayon ərazisində yerləşən Güney – Zağalı dəryaçasında (süni gölündə) vaxtilə sovetlər dövründə fəaliyyət göstərmiş olan avarçəkmə bazasının hazırda yenidən təşkili də məqsədəuyğundur. Bununla bağlı "Azərişıq" ASC-nin sədri, Azərbaycan Milli Avarçəkmə Federasiyasının prezidentinə tərəfimizdən edilmiş müraciət müsbət qarşılanmışdır. Eyni zamanda, həmin gölün ətrafında geniş əlverişli təbii şəraitin olmasını nəzərə alaraq müxtəlif növ turizm obyektlərinin yaradılmasına və mehmanxana tikintisinə ehtiyac yoxdur. Bu göldə avarçəkmə bazasının yenidən yaradılması həm də rayon əhalisinin məşğulluğunun və ərazidə infratsrukturun daha da yaxşılaşmasına səbəb olacaqdır.

"Yeni Daşkəsən" layihəsində rayonun turizm potensialından səmərəli istifadə edilməsi də prioritet kimi qarşıya qoyulmuş və bu sahədə bir sıra pilot layihələr həyata keçirilmişdir. Həmçinin Daşkəsən rayonunun turizm potensialını təbliğ edən sayt visitdashkasan.az yaradılmışdır.

Abadlıq və quruculuq tədbirləri çərçivəsində Daşkəsən şəhərinin bütün küçələrinə yeni asfalt örtüyü salınmış, istinad divarları və səkilər yenidən qurulmuş, bütün çoxmərtəbəli yaşayış binalarının dam örtükləri metal lövhələrlə əvəzlənərək dəyişdirilmiş, park və yaşıllıqlar salınmış, 21 məktəb yenidən inşa edilmiş, Daşkəsən Gənclərin Təlim və İstirahət Mərkəzi istifadəyə verilmiş, onlarla sosial və inzibati obyekt tikilmişdir.

"Yeni Daşkəsən" layihəsində həmçinin Daşkəsənin kənd təsərrüfatlarının mövcud vəziyyətlərinin təhlili və heyvandarlığın, arıçılığın, kartofçuluğun inkişafı, ən əsası isə yeni iş yerlərinin açılması və işsizliyin aradan qaldırılması, mövcud problemlərin həlli, o cümlədən də rayonun əsasən dəmir, qızıl və alunit kimi zəngin filiz mədənlərinin yenidən qurularaq istifadəyə verilməsi əsas vəzifə kimi qarşıya qoyulmuşdur.

Daşkəsənin filiz mədənlərinin səmərəli istismarı Prezident İlham Əliyevin diqqət mərkəzindədir və son illər bu istiqamətdə mühüm işlər həyata keçirilmişdir. Belə ki, 10 ildən artıqdır, rayon ərazisində fəaliyyət göstərən Çovdar qızıl yatağının düzgün və səmərəli istifadəsi qeyri-neft sektorunun inkişafına səbəb olmuş, ölkəyə milyonlarla dollar gəlir gətirmişdir. Bu gün "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin "Çovdar" İnteqrəolunmuş Regional Emal Sahəsində ümumilikdə 1000 nəfərdən artıq işçi çalışır və yüksək əməkhaqqı alır. "AzerGold" QSC-nin fəaliyyəti ölkəyə böyük valyuta gətirməklə yanaşı, Gəncə – Daşkəsən iqtisadi rayonunun inkişafına və işsizliyin aradan qaldırılmasına öz töhfəsini verir.



Əvvəllər 700 nəfərdən artıq işçisi olan Daşkəsən Zəylik – Alunit mədəninin fəaliyyətinin bərpasına da ciddi ehtiyac vardır. Zəngin alunit ehtiyatlarına malik həmin hasilat müəssisəsi işə salınarsa, bu həm ölkəyə əlavə valyuta axını, həm də yüzlərlə yeni iş yerinin yaradılması deməkdir.

"Daşkəsən Dəmir Filiz" MMC-nin və Daşkəsən Zəylik – Alunit mədəninin modern texniki avadanlıqlarla təchiz edilərək işə salınması regionda işsizliyin aradan qaldırılmasına, sakinlərin daimi işlə təmin olunmasına hərtərəfli şərait yaradacaq, həm də uzun müddət problem olaraq qalan məsələlər öz həllini tapacaq. Daşkəsən rayonu ölkə büdcəsinə xaricdən valyuta gətirən inkişaf etmiş pilot bir rayona çevriləcəkdir.

Bundan başqa, Daşkəsən Rayon İcra Hakimiyyətinin, İqtisadiyyat Nazirliyinin və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) müəssisəsinin iştirakı ilə "Daşkəsən rayonunun 2019 – 2023-cü illərdə yerli inkişaf Planı" qabaqcıl dünya təcrübəsi əsasında iki dildə hazırlanmışdır və konseptual bir sənəddir.

Daşkəsən rayonu Kəlbəcər rayonu ilə həmsərhəd olduğu üçün müharibənin ilk saatlarından rayon ərazisində yerləşən N saylı hərbi hissənin dağ motoatıcı qüvvələri əks-hücuma keçərək düşmənə sarsıdıcı zərbələr endirdi. Bu qızğın döyüşlərdə yaralanmış hərbi qulluqçularımız Daşkəsən Rayon Mərkəzi Xəstəxanasında müalicəyə cəlb olundular. Daşkəsən Rayon İcra Hakimiyyətinin dəstəyi ilə təşkil olunmuş təcili tibbi yardım avtomobilləri ilə daşınan yaralı əsgər və zabitlərimizin sağalması üçün bütün imkan və vasitələrdən istifadə edildi. Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən hərbçilərimizə zəruri tibbi ləvazimat və dərmanlar, yanacaq, çoxsaylı elektrik generatorları, yataq dəsti və avadanlıqlarla təchiz olunmuş 100-dən artıq müasir çadır verildi, qana ehtiyacı olan əsgər və zabitlərimiz üçün qanvermə aksiyaları təşkil olundu, həmçinin xüsusi texnikalar rayona gətirilərək Kəlbəcərə döyüşə gedən hərbçilərimiz üçün yeni yol çəkildi. Yaralı hərbçilərimizə xidmət göstərmək üçün ezam olunan tibbi briqadaların rayondakı otellərdə və qonaq evlərində yerləşdirilməsi, gündəlik yeməklə təminatı da Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən təşkil edildi. Vətən müharibəsinin gedişi zamanı Ermənistan Daşkəsən ərazisini dəfələrlə ağır artilleriya qurğularından və raketlərdən atəşə tutmaqla ekoloji terror – meşə yanğınları törətdi. Daşkəsən rayon mülki müdafiə qərargahının rəhbəri kimi şəxsən mənim iştirakımla şiddətli yanğınların söndürülməsi məqsədilə cəlb olunmuş yerli mülki müdafiə qüvvələrinin səyi və əzmi ilə ərazilərin mürəkkəb dağlıq relyefə malik olmasına baxmayaraq, yanğınlar qısa müddətdə söndürülərək onların geniş əraziyə yayılmasına və sıx meşəyə keçməsinə imkan verilmədi. Prezident cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən rayonun şəhid ailələri və qaziləri mütəmadi olaraq ziyarət olunur, qayğıları ilə maraqlanılır, problemlərin həlli istiqamətində aidiyyəti qurumlarla birgə müvafiq tədbirlər həyata keçirilir.

Hesab edirəm ki, yerli xüsusiyyətlər nəzərə alınmaqla yeni iqtisadi rayonların təşkili ölkə iqtisadiyyatının güclənməsinə, ixrac səbətinin həm çeşidinin, həm də coğrafiyasının genişlənməsinə şərait yaradacaq, nəticədə milli iqtisadiyyat dayanıqlı inkişaf edəcək və dünya bazarına daha səmərəli inteqrasiya olunacaq.

Gəncə – Daşkəsən – iqtisadi rayonunda yerli xammala əsaslanan müasir müəssisələrin yaradılması rəqabətqabiliyyətli məhsul istehsalına və ixracına, özəl investisiyaların cəlb olunmasına, həmçinin məşğulluğun artmasına parlaq töhfələr verəcək.

***Əhəd ABIYEV,***
***Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı***